# “Qordi düyünü” çözüldü!

## “Qordi düyünü” nədir?

Rəvayətə görə, Finikayada Zevs məbədinin kahini xəbər verir ki, şəhər qapısından kim birinci daxil olarsa, o da ölkənin ən möhtəşəm hökmdarı olacaqdır. Şəhərə birinci naməlum bir kəndli öz arabasında daxil olur. Bu kəndlinin adı Qordion idi. Şərtə görə, onu Finikiya hökmdarı elan edirlər. Bu hadisəyə şükranlığını bildirmək məqsədilə Qordion öz arabasını Zevs məbədinə bəxşiş edir. Qordion öz arabasını zoğal ağacının liflərindən hazırlanmış kəndirlə məbədin qurbangahına bağlayaraq elə bir düyün vurur ki, onu heç kim aça bilməsin. Bunu görən kahin bəyan edir ki, bu düyünü açan kəs bütün Asiyaya sahib olacaqdır. Asiyanı özünə birləşdirib böyük bir imperiya quracaqdır.

Finikiyanın paytaxtını fəth edən böyük sərkərdə Makedoniyalı İsgəndər məbədə daxil olaraq qılıncı ilə düyünü söküb atır. Kahin buna belə bir məna verir: “O cahana sahib olacaq! Ancaq siyasi yolla deyil, qılınc gücünə!”

## Qarabağ... “Qordi düyünü”...

Qarabağ probleminin başlanması, 20 yanvar hadisəsi, Xocalı faciəsi dövründə “Qəbələ” qəzetinin əməkdaşı idim. Baş verən hadisələr, xalqımızın, eləcə də, qəbələlilərin bu hadisələrə münasibəti, insanların simasına çökən qəm kölgəsi, yaşayış səviyyəsinin hərtərəfli çətinləşdiyi o illərdə bu həyatı qəzet səhifələrində işıqlandırırdıq. Həm də o qədər güclü senzura olduğu bir dövrdə... Amalımız dövlətçiliyimizin qorunması, vətənpərvərlik və xalqın mənafeyini ifadə etmək olmuşdur.

Tale bizə bu ağrıları yaşamağı nəsib etdi. Ancaq tale elə gətirdi ki, bu dəfə Qarabağ dərdini yaşamaq bir deyil, bir neçə nəslin qismətinə düşdü. 30 ilə yaxın bir vaxt keçməsinə rəğmən Qarabağ adlı yara heç qaysaq tutmadı. Azərbaycan bənzəri olmayan gözəlliklər diyarı uğrunda şəhid olan qəhrəman övladlarının narahat ruhları ilə yaşadı... Bu illər ərzində Qarabağ üzərindən oynanılan çox oyunlara şahid olduq. Rusiyanın hegemonluq ambisiyaları, Ermənistanın işğalçılıq niyyətləri, mənfur xislətlərindən doğan hərəkətləri, ABŞ-ın apardığı nüfuz savaşına meydan oldu ölkəmiz. Müxtəlif humanist adlar altında fəaliyyət göstərən beynəlxalq təşkilatlar isə bu “Qordi düyünü”nə seyrçi qaldılar. Qarabağ Azərbaycan torpağı olmasına dair qəbul etdiyi sənədlər də populizmdən o tərəfə keçmək gücündə olmadı. Ancaq dövlətimiz heç bir oyuna gəlməyərək başını dik tutdu, müstəqilliyin ilk kövrək addımlarını atsa da dirəndi, dünyaya göstərdi ki, yürüdüyü yol haqq yoludur! Bu yolda ölmək var, öldürmək var, ancaq öz torpaqlarını qurban vermək yoxdur. Bu vazkeçilməzdir! Qarabağ məsələsi “Qordi düyünü”nə düşmüşdü. “Qordi düyünü” elə adına layiq tərzdə də açılmalıdır!

## Gülünc duruma düşən ölkə

Azərbaycan 30 illik zaman kəsiyində dünyaya açıldı, inkişaf etdi, həm də hərtərəfli. Yeri gələndə sözünü dedi, həm də, daima və ucadan. Xocalı faciəsinin, qətliamının üzərindən sükutla keçib qondarma erməni “genosid”ini tanımaqla Ermənistana mənəvi dayaq duran “dost” münasibətində olan, ancaq hansısa bir variantla blokada şəraitində qalan işğalçı ölkəyə maddi yardım əlini uzadan bəzi ölkələrin tutduğu mövqe, getdiyi yol tarixin təkərini geri fırlatmaq, Azərbaycanın ərazisini ondan qoparmaq gücündə deyil! Həqiqət odur ki, Azərbaycan 30 il önceki ölkə deyil. Ötən müddət ərzində hər zaman arxasında duran güclərə güvənən Ermənistan son illərdə Azərbaycanın artan nüfuzunun fərqinə vardı və hiss etdi ki, getdikcə perspektivə ümidini daha çox itirir. Torpaqlarımızı uzun illərdir işğal altında saxlasa da, bu torpaqlarda qurduğu qondarma “respublika”nı, yalnız dünya dövlətləri deyil, heç öz parlamentinin tanımaması bu ölkə rəhbərliyinin elə öz daxilində nüfuzunu heçə endirdi. Məhz daxildə artan bu gərginliyi ört-basdır etmək məqsədi ilə 2016-cı ilin aprelində Azərbaycan üzərinə hücuma keçən Ermənistan bununla özünü daha çətin duruma saldı. Atəşkəsi pozub sonra bu təşəbbüsün Azərbaycan tərəfindən gəldiyini israrla ictimai şüura yeritməyi hədəfləyən işğalçı ölkə həm gündəm mövzusunu dəyişmək, ölkə içində narazılığıləngitmək, həm də, Azərbaycanı aqressor kimi təqdim edib, onun beynəlxalq arenada qazandığı nüfuza kölgə salacağını düşünürdü. Əslində isə özü daha gülünc duruma düşdü. “Dördgünlük müharibə”nin sonucları Ermənistan üçün çox gözlənilməz oldu...

## Dəqiq mesaj verilmişdi

Dördgünlük müharibənin dayandırılmasından keçən müddət ərzində Ermənistan müharibənin başlanması və atəşkəs təşəbbüsünün özünə aid olduğunu hər vəchlə gizlətməyə çalışsa da, beynəlxalq aləm hər şeyi öz adı ilə çağırmağa meyilli görünürdü. Bu müharibə bir məsələni daha dəqiqliyi ilə ortaya qoydu. Azərbaycan bundan sonra status kvonun qalmasına razı olmayacaq! Həmçinin Ermənistan anladı ki, Azərbaycan hərbi çözüm yoluna əl atarsa, qarşısında dura bilməyəcək. 2020-ci ilin iyul ayında erməni işğalçılarına ordumuzun əsgərləri lazımi cavab verdi, humanistlik edərək atəşkəsə yenə əməl edildi. Ancaq baş verənlər göstərdi ki, nə qədər zamanın keçməsinin heç bir fərqi yoxdur. Dəyişməyən bir gerçəklik olduğu kimi qalır- Azərbaycan torpaq itkisi ilə heç vaxt barışmayacaq.

## Zəfər yürüşü

2020-ci il sentyabrın 27-də başlanan işğalçılara qarşı əks hücum... Bütün xalq, prezidentimiz-Ali Baş Komandan İlham Əliyevin səsinə səs verdi. Hər kəs-gəncləri və yaşlıları torpaqlarımızın işğaldan təmizlənməsi uğrunda, ərazi bütövlüyümüzün bərpası uğrunda şərəflə döyüşmək üçün səfərbər oldular. Güclü ordumuzun əsgərlərinin gücü və Ali baş komandanımızın düzgün taktikası nəticəsində 44 günlük müharibədə zəfər çalındı. Ermənilər layiq olduqları cavabı aldılar və torpaqlarımızdan qovuldular. Onlar nə qədər vandallıq, qəddarlıq göstərsələr də xalqın iradəsini qıra, əsgərlərimizin şücaətini azalda bilmədilər. Müharibə qansız-qadasız keçməz, deyirlər. Torpaqlarımız da igidlərimizin qanı, canı bahasına alındı, məğlubluq, qaçqınlıq kölgəsi üzlərdən silindi, hər kəs qalib ölkənin vətəndaşı, yurdlu-yuvalı olması ilə fəxr etdi. Şəhid, itgin və yaralı, döyüşkən qazilərimizin anaları-əzizləri şəhid ruhlarının nigarançılıqdan qurtarılmasına, əzizlərinin qanının yerdə qalmamasına sevindi. İnsanların həyat eşqi gücləndi... “Qordi düyünü” öz anlamına xas bir tərzdə açıldı, kəsildi...

İndi hər kəs-qaçqın və köçkün titulundan azad olanlar öz yurdlarına dönmək və işğalçıların viran qoyduğu o yerləri laləzara çevirmək, cənnətməkan etmək, ocaqlarını yenidən çatmaq arzusundadırlar. Yolunuz açıq olsun!

**Bibixanım İSAYEVA,**
**“Qəbələ”**

# Reydlər davam etdirilir

1 dekabr 2020-ci il tarixində rayonda koronavirus infeksiyasının yayılmasının qarsısının alınması məqsədilə əhali arasında maariflǝndirmə işləri aparmaq və karantin qaydalarına riayət olunmasına izah edilib. Gün ərzində ümumilikdə 88 ticarət və 77 digər obyektə baxış keçirilib. 7 nəfər dünyasını dəyişmiş mərhumun ailələrinə yas mərasimlərinin keçirilməməsi ilə bağlı xəbərdarlıq edilib. Xüsusi karantin rejimi qaydalarını pozduqlarına görə 6 nəfər rayon sakini və 1 ticarət obyektinin işçisi İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə hər biri 100 manat məbləğində cərimə olunub. Koronavirus pandemiyası ilə bağlı tədbirlər davam etdirilir.



nəzarət məqsədilə tədbirlər davam etdirilib. Mobil qruplar tərəfindən aparılan reydlər zamanı vətəndaşlara bir daha tibbi maskadan istifadənin və sosial məsafə saxlanılmasının, Operativ Qərargahın müəyyən etdiyi digər tələblərə əməl olunmasının vacibliyi

# Biz birlikdə güclüyük

Pandemiyanın dünyada ilk yayıldığı vaxtlarda Azərbaycan nəinki yerləşdiyi regionda, hətta Avropada nümunə göstərilsə də, son günlərin rəqəmləri vəziyyətin heç də ürəkaçan olmadığını təsdiqlədi. Yoluxmanın hətta dörd rəqəmlini keçmək həddi, ölümlərin sayının buna müvafiq artması ciddi narahatlıq yaratmaya bilməzdi. Buna görə də ələqədar təşkilatlar, o cümlədən daxili işlər orqanları əməkdaşları ciddi karantin rejiminin bərpası haqqında düşünməyə çağırdı.

Artıq müəyyən tədbirlər də görülür.

Təxmini ötən ilin bu vaxtlarından etibarən bəşəriyyət gözə görünməyən düşmənlə üz-üzədir. Erməni seperatizmi və koronavirus xalqımızın dinc yaşayışına əngəl oldu və ikitərəfli düşmənlə mübarizəyə məcbur etdi. Azərbaycan erməni vandalları ilə mübarizədə tarixi qələbə qazandı, ancaq gözlə görünməyən düşmənlə mübarizə davam edir. Güclü xalqımız bu “müharibədə” də qalib olmalıdır. Buna görə də hamılıqla mübarizə aparmalıyıq.






Koronavirus əlamətlərinə gəlincə, bunlara diqqət ayırmaq lazımdır: boğazda qaşınma, quru öskürək, yüksək temperatur, nəfəs darlığı, qoxu itkisi. Əgər bunlar varsa, hökmən həkimə müraciət etmək lazımdır. Bu, ilkin əlamətlər olduğu üçün müalicəsi adi qrip kimi, yüngül olur. Onu da unutmayaq ki, isti su ilə limon virusu ağciyərə çatmadan öldürür.

Koronavirusdan qorunmaq həm maddi, həm də, mənəvi məsələdir. Azərbaycan dövləti kimi xalqımız da bu bəşəri bəladan xilas olmaqda nümunə göstərməlidir. Bütövlükdə xalqımızı və dövlətimizi qorumaq hər birimizin borcudur, buna görə özümüzü qorumalıyıq! Bu isə öz əlimizdədir-məsuliyyətli olmağımızla...

# Koronavirus xəbərləri

## Doğru dərman qəbulu

Bildiyimiz kimi, millət vəkili Rəşad Mahmudov da koronavirusa yoluxub. İxtisasca həkim olan Rəşad Mahmudov müalicə alaraq sağalıb. Bu xəstəliyi keçirən və öz ixtisasına əsasən millət vəkili insanlara öz tövsiyələrini verib. O qeyd edib ki, pandemiyanın (Covid-19) müalicəsində 3 təhlükəli vəziyyət əsas rol oynayır:

1. Kontrol edilməyən qorxu və stress;

2. Oksigen saturasiyasının 90 faizin altına düşmədən, sadəcə qripal simptomlara görə insanların xəstəxanalara yerləşdirilməsi üçün axın etməsi;

3. Antiviral preparatların vaxtında qəbul edilməməsi və ya onların yerinə lazımsız (antibiotik) və təhlükəli (deksametozon) preparatların ilk günlərdə qəbul edilməyə başlanması.

Əmin olun ki, bu 3 vacib məqamı dərk edib ona riayət edən cəmiyyətlər bu pandemiya ilə mübarizədə minimal itki ilə vəziyyətdən çıxacaq. O, həmçinin, qeyd edib ki, ağciyər tutulması ilə evdə sadəcə doğru dərman qəbulu (ağızdan antiviral tablet-ka, vitamin c və parasetamol) və yatacaq istirahəti ilə müalicə olunub.

## Koronavirusu təyin etmənin sadə üsulu

Ukraynalı həkim Evgeniy Komarivskiyin sözlərinə görə kozronavirusun əsas simptomlarından biri iybilmənin pozulması və itməsidir. Bunun səbəbi virusun beyində iybilməyə cavabdeh olan neyronları zədələməsidir. Soyuqdəymə zamanı da iybilmə azala bilər, lakin bunun səbəbi zökəmdir. Bu zaman burunda çoxlu selik yığılır, selik axır və nəticədə qoxubilmə azalır.

Koronavirus xəstələrində isə adətən burun axmır,ancaq xəstələrin bir çoxu ən kəskin qoxuları belə ayırd edə bilmirlər.

Həkim bunu nəzərə alaraq, sadəcə “sarımsaq testini” təklif edib. O qeyd etmişdir ki, bu termometriyadan daha effektli testdir. Əgər insan sarımsağın iyini hiss etmirsə, bu, koronavirusa yoluxmaya işarə ola bilər.